***Aləmşah bəyim Əlvənd Mirzə ilə son döyüşdən qayıdan oğlunun əhvalını çox yaxşı görürdü. At üstündə Təbrizə qayıdan şah bütün əmirlərin onu əhatə edən döyüş qəhrəmanlarının arasında bir günəş kimi parlayırdı. Şahı qarşılayan Səkkiz behişt sarayının sakinləri və divan adamları arasında Aləmşah bəyim də vardı.***

***Bir az əvvəl saray əhli hökmdarın qayıtmaq xəbərini bir-birinə muştuluqlayırdı. Şahın qələbə ilə qayıtması hamını sevindirdiyi kimi, anası Aləmşah bəyim də çox sevindirmişdi. O da saraydakı qarşılanma mərasiminə xüsusi bir sevinclə qatılmaqdaydı. Sarayda yaşayan əmirlərin ailə üzvləri - xanımlar, gənc qızlar da onunla bahəm sarayın önünə çıxmışdı.***

***Hökmdar divan adamları ilə görüşüb, saraya tərəf irəlilədi. Aralıdan anasını qız-gəlinlərin içində görən gənc iri addımlarla ona tərəf getdi. Yaxınlaşıb dizini yerə qoydu, anasının əllərindən tutdu. Bir anlığa ona elə gəldi ki, hələ körpəykən canını hər cür bəlalara sipər edərək oğlunu qoruyan ananın əllərinin hərarəti heç dəyişməyib.***

***Aləmşah bəyim də həmin hisslərlə xeyli əvvəldə qalmış həmin günləri xəyalından keçirirdi. Qəhqəhə qalasında oğlu ilə tənha keçirdiyi günlər birər-birər onun gözlərinin önündən keçirdi. Qəm-kədər onu boğanda balaca İsmayılı qucağına sıxıb əri Şeyx Heydərin yadigarı kimi onu əzizləyərdi. Bəzən ümidsizliyi də olardı. Bəlkə, heç bu qaladan kənara çıxa bilməyəcəklər.***

***Bir dəfə balaca İsmayıl anasından soruşmuşdu:***

***- Biz bu qaladan nə vaxt çıxacağıq?***

***Aləmşah bəyim oğlunun saçını sığallamış, gözlərinə baxıb demişdi:***

***- Ümidim, pənahım, sən böyüyəndən sonra bu qaladan çıxacağıq.***

***- Bəs hara gedəcəyik, harda evimiz olacaq? - İsmayıl soruşmuşdu.***

***- Bütün Azərbaycan bizim evimiz olacaq, ümidim, - ananın bu sözləri İsmayıla xoş gəlsə də, yenə soruşdu:***

***- Axı nə üçün bütün Azərbaycan bizim evimiz olsun?***

***- Çünki sənin atan belə istəyirdi.***

***- Hə atam... Atama da yəqin ki, kimsə tapşırıb.***

***- Hə, atana da baban Şeyx Cüneyd tapşırmışdı. O da öz babasının vəsiyyətini yaddan çıxarmamışdı.***



*Hüseynbala MİRƏLƏMOV*

# ÇALDIRANA GEDƏN YOL

## *romandan səhifələr*

*(Əvvəli ötən saylarımızda)*

Ana-bala arasında olan bu mükaliməonun yaddaşına elə o vaxtdan həkk olunmuşdu.

Zaman-zaman İsmayıl bu sözləri xatırlayıb, anlamadığı tərəflərini də dustaq qaldığı qaladan çıxandan sonra ona lələlik eləyən Hüseyn bəydən öyrənmişdi. Hüseyn Lələ bəy Şah İsmayılın şəcərəsi haqqında yaxşı bilgi sahibi olduğundan hər şeyi ona başa salmışdı. Hüseyn Lələ bəyin sayəsində İsmayıl döyüş fəndlərini mənimsəmiş, pəhləvanlıq sənətinə sahib olmuşdu. Hələ gənc ikən, döyüşlərə atılmamış zamanında belə qalxanı qılıncı ilə yarı bölür, ağır zəncirləri bir zərbə ilə qırıb tökürdü.

Şah az vaxt içərisində sanki öz keçmişinə səyahət eləyir və necə böyüdüyünü öz xəyalında canlandırırdı. Bir anlığa ona elə gəldi ki, bir şah kimi adamların gözü qabağında diz çöküb dayanması qəbahət olar, başını qaldırıb anasının üzünə baxdı. Aləmşah bəyimin gözləri yaşla dolmuşdu. Şah ayağa qalxıb anasının boynunu qucaqladı. Ananın dolmuş gözlərindən axan yaş oğlunun boyun-boğazını islatdı. Şah iki əli ilə anasının gözlərinin yaşını sildi. Anası gülümsündü.

- Sən evimizə gəlmisən, İsmayıl.

- Bəli, ana, evimizə gəlmişəm, indi bütün Azərbaycan bizim evimizdi.

- Şükür Xudaya, kəramətinə min şükür. Şeyx Heydərin arzusu yerinə yetir.

Ananın dilindən çıxan bu sözlər sanki İsmayılın şahlıq qürurunu böyük bir ordunun sərkərdəsi olmaq mərtəbəsini onun yadına saldı. Şah dönüb baxdı. Əmirlər lap yaxında idi, hər kəs onu gözləyirdi, saraya keçmək üçün. Şah anasından bir qədər aralanıb, sarayın digər qızlarına, gəlinlərinə salam verdi. Sağ əlini sinəsinə qoyub, başını tərpətdi. Bu vaxt onun diqqətini anası Aləmşah bəyimin böyrünə qısılmış gənc bir qız da özünə çəkdi. Şahın nəzərləri qızın üzərində dayandı. Ha illah elədi ki, başını yana çevirsin, bacarmadı. Sanki qızın gözlərindən gözəgörünməz tellərlə bir tor atılmışdı. Və o tor da gənc şahı əsir eləmişdi.

Bu vaxt Şah İsmayıl yeniyetmə idi. Bığ yeri təzəcə tərləmişdi. Hələ indiyədək başı hərb elminə qarışmış və eyni zamanda həm də qalan vaxtını ədəbiyyata, qədim Şərq elmlərini öyrənməyə sərf eləmişdi. Şah xalq arasında dolaşan dastanlardan da xəbərdar idi. Hüseyn Lələ bəyin ayırdığı filosof müəllimlərindən öyrənmişdi ki, bəzən məhəbbət ilk baxışdan insanın qəlbinə yol tapır. Və insan ömrü boyu bu ilk dəfə varlığına yol tapmış sevgini unuda bilmir.

Əslində, şah günəşüzlü Şəfəq xanımı çoxdan tanıyırdı. Bilirdi ki, Əbdi bəyin qızıdı. Gözəlliyinə, qənirsiz görkəminə görə atası ona qızların şahı deyərdi. Elə bu üzdən də onun əsl adı unudulmuşdu. Hamı elə Taclı deyə çağırırdı.

Amma indi, deyəsən, gənc şah Taclı bəyimi ilk dəfə elə indi görürmüş kimi ona diqqət kəsilmişdi. Həqiqətən də şah sanki heç Taclı bəyimi heç indiyədək görməmişdi. Və bu ilk görüş onun qəlbində elə bir vəlvələ yaratdı ki, şahlığı da, taxt-tacı da... hər şeyi də yaddan çıxartdı.

Əmirlər hərəkətə gəldi. Şah daha dayana bilməzdi. Saray adamları bir tərəfə çəkildilər, ancaq bundan sonra şah içəriyə necə getdi heç özü də bilmədi. Özü-özünə təəccüb qalmışdı. Necə olub ki, indiyədək Taclı bəyimi onun diqqəti cəlb etməyib? Saraybaşının təklifinə görə Səkkiz cənnət bağının bir tərəfində şənlik başladı. Hətta adamlara xəbər verildi ki, bu şənlik üç gün davam edəcək. Və şah da istirahət edəndən sonra bu məclisə təşrif buyuracaq.

Əbdi bəy fikirli idi. Öz xanəsinə getdi. Onun əmirlərdən tez ayrılmasına heç kim fikir vermədi. Onu arvadı qarşıladı. Gülnaz xatunun onu sevgi ilə qarşılamasının da, deyəsən, elə bir ciddi təsiri olmadı.

- Niyə fikirlisən, əzizim, döyüşdən ki, qələbə ilə qayıtmısan.

- Bəli, şahımız qalib gəldi.

- Demək, həm də sən qalib gəlmisən.

- Elə də demək olar. Biz ümidimiz, pənahımız, mürşidimiz üçün vuruşuruq, - Əbdi bəy cavab verdi.

- Bəs onda niyə belə çox tutqun görünürsən?

- Bilirsən, Gülnaz xanım, biz saraya daxil olanda mən bir mənzərə gördüm. O mənim halımı dəyişdi.

- De görüm, canım sənə qurban olsun, o nə mənzərə idi ki, sənin halını dəyişib?

- Mən gördüm ki, gənc şah bizim qızımıza çox diqqətlə baxır.

- Bunda pis nə var ki, mənim əzizim?

- Mən demirəm ki, bunda pis nəsə var, amma gərək unutmayaq İsmayıl şahdır. Biz də onun təbələriyik. Şahın əlinin üstündə əl yoxdu. O bu gün birinə aşiq olar, sabah da başqasına. Əgər bu söz-söhbət araya çıxsa, və bir gün şah da bizim qızımızdan üz döndərsə, onda gərək mən əmirlərin arasına çıxmayam.

- Əbdi bəy, sən Təkə-Turkmanlısan. Doğrudur, sənə Əbdi bəy Şanlı desələr də, nəslini, əslini unutmamısan. Bir vaxt Şeyx Heydərin yanına Şam şəhərindən gəldiyin üçün sənə Şamlı Əbdi bəy deyirlər. Düşünürəm ki, İsmayıl da atası Şeyx Heydərin sənə olan rəğbətindən xəbərdar olar.

- Mənim gözəl xanımım, başa düşürəm, sən demək istəyirsən ki, İsmayıl heç vaxt istəməz ki, atasının yaxın dostu Əbdi bəyin başı əmirlər arasında aşağı olsun.

- Bəli, mən elə onu demək istəyirəm.

Deyəsən, Əbdi bəy arvadı ilə bu söhbətdən sonra xeyli sakitləşdi. Onu qapsamış olan qara-qorxulu fikirlər də başından dağılıb getdi. Yalnız bundan sonra bir qədər dincəlməli və sonra şahın şənlik mərasiminə qatılmalı olduğunu yadına saldı.

* * *

Şah öz hücrəsinə çəkilmişdi. Xəyalı bayaqkı gözəlin gözləri önündə əsir olmuşdu. Ha çalışırdı ki, bu gözlərin əsirliyindən xilas olub, dincəlsin, neçə günün yorğunluğu da canından çıxsın. Həm də öz hücrəsinə gəlməzdən əvvəl Hüseyn Lələ bəy ondan soruşmuşdu ki, şənliyə nə vaxt gələcək. O da ümumi bir cavab vermişdi: «Əmirlər neçə günün yorğunudurlar, qoy onlar da dincəlsinlər. Sən özün nə vaxt məsləhət bilsən, mənə də xəbər verərsən».

Hüseyn Lələ bəy şahın bu cavabından sonra çıxıb getmiş, yəqin ki, şahın dincəlməsi üçün ona sakitlik yaratmağın vacib olduğunu da unutmamışdı. Axşamdan xeyli keçmişdi. hələ də şənlik davam edirdi.

Şah öz hücrəsindən çıxdı. Kimsəyə heç nə demədən yaxınlıqdakı solmayan güllər baxçasına girdi. Ətrafında çılçıraqlar yanırdı. Axşam çoxdan düşsə də, bu çılçıraqların işığında güllərin gözəlliyi daha artıq görünürdü. Gənc şah güllərin arası ilə irəliləmək istədi. Bu vaxt tanış gözlərlə qarşı-qarşıya gəldi. Bəli, bu həmin gözlər idi. Günəş üzlü Şəfəqin gözləri.

- Axşamın xeyir, günəş üzlü xanım.

- Hər vaxtın xeyir, tacıdarım.

- Mən hardan sənin tacıdarın oldum?

- Hökmdar sən bütün ölkənin tacıdarısan, demək mənim də tacıdarımsan.

Hökmdar gənc qızın sözlərindən çox xoşhal oldu. Əvvəlcə öz sualı ilə qızı incidəcəyini düşünmüşdü, amma gənc qız çox ustalıqla vəziyyətdən çıxmışdı. Sanki bununla hökmdara sözünün yerini bilmək dərsi vermişdi. Hökmdar bir az yaxına gəldi. Qız hiss elədi ki, İsmayıl onun əlindən tutmaq istəyir. Bir az geriyə çəkildi. Şah onun geriyə çəkilməsindən bir az da inadlandı. Qabağa yeridi. İki əlini uzadıb qızın qollarından tutmaq istədi. Qız bir az da geri çəkildi. Bir tərəfdə gül kolları, arxada iri gövdəli dağdağan ağacı. Şəfəq ağacı özünə arxa-dayaq bildi. Yaxınlaşan şaha bir az da vahiməli gözlə baxdı:

- Bax, ha xəta eləməyəsən, - bir az da həyəcanla dedi.

Şahın qolları sanki yanına düşdü.

Gənc qız həyəcanla ona baxırdı. İndiki halda bu qız sanki hürkək bir bala ceyran idi. Necə qarşısındakı gəncdən təhlükə gözləyirdisə, eləcə də kömək umurdu, xilasını da onda görürdü.

İsmayıl yaxına getmədi. Eləcə heyran-heyran dayanıb baxdı.

- Mən hiss elədim ki, sən mənim qəlbimi əsir eləmisən. İndi necə sənə doğru gəlməyəydim?

Gənc İsmayılın bu sözləri qızın qəlbində çox həzin və xoş duyğular oyatdı. Ancaq demədi ki, elə şah da onun qəlbini ovlayıb. Əlbəttə, gənc bunu qüruruna sığışdıra bilməzdi ki, desin. Ancaq qızın «xəta eləməyəsən» sözü gənc hökmdarın düşüncəsinə hakim kəsildi: «Demək, hökmdar olsan da, bir zəifi əzmək haqqın yoxdur», - İsmayıl özünü toplayıb:

- Bəs nə əcəb bu ay üzlü gözəl şənliyə getməyib? - soruşdu.

- Könlüm istədi ki, bir az güllər arasında olum. Hökmdar izn versə, indi gedərəm.

Şah İsmayılın könlü alovlandı, indi o, şah deyildi. Ürəyi sinəsindən qoparılıb aparılmış yara sahibi idi. Sinəsi həyəcanla qalxıb-enir və dodaqaltı nəsə pıçıldayırdı.

***(Davamı var)***